


Azərbaycan dilində

Review of recent changes in the Azerbaijani legislation, adopted by governmental and regulatory bodies, as well as draft amendments to Azerbaijani legislation that could significantly impact on your business.

All updates of 2016 · Our Contacts

## 10 October 2016

## Tax and Legal Services

## In this issue:

- Establishment of the Pirallahi Industrial Park
- Government support to sericulture in the Republic of Azerbaijan
- Single Registry of the licenses and permits
- Establishment of the single information database of the goods produced in the Republic of Azerbaijan
- Government support to cotton-growing in the Republic of Azerbaijan
- Establishment of the "ABAD" public legal entity
- Rates of custom duties on export-import operations in the Republic of Azerbaijan

## 1. Establishment of the Pirallahi Industrial Park

Document: Decree of the President of the Republic of Azerbaijan *“On establishment of the Pirallahi Industrial Park”*

Signed date: 14 September 2016

Commentary: The President of the Republic of Azerbaijan signed a decree “On establishment of the Pirallahi Industrial Park” in the Pirallahi district of Baku city on 14 September 2016.

The decree envisages the determination of the Pirallahi Industrial Park as an area which has the necessary infrastructure and management bodies and which is used for the production of competitive industrial, including pharmaceutical industry products, for providing services, as well as for the establishment of the processing facilities. Measures related to the operation, management and development of the Pirallahi Industrial Park are performed by “Sumgayit Chemical Industrial Park” Limited Liability Company (hereinafter, “Company”).

The implementation of the below measures related to the operations of the Pirallahi Industrial Park was assigned to the corresponding government authorities:

- Granting 30 hectares of land plot located in Samad Vurgun street, Pirallahi district for permanent use of the Company within two months with the right to lease – *to the Cabinet of Ministers;*
- Establishment of the external and internal infrastructure in the Pirallahi Industrial Park, determination of the priorities on manufacturing and processing of industrial products – *to the Ministry of Economy;*
- Allocation of AZN 4 billion from the reserve fund of the President of the Republic of Azerbaijan to the Ministry of Economy for organizing the operations of the Pirallahi Industrial Park – *to the Ministry of Finance.*

Decree is effective as of 14 September 2016.

## 2. Government support to sericulture in the Republic of Azerbaijan

Document: Decree of the President of the Republic of Azerbaijan *"On Government support to sericulture in the Republic of Azerbaijan"*

Signed date: 15 September 2016
Commentary: Decree, signed on 15 September 2016, by the President of the Republic of Azerbaijan envisages the provision of persons engaged in the production of cocoon with subsidies for one kilogram of wet cocoon received by cocoon fabricating and silk producing enterprises. The amount of subsidy and rules for granting it have to be confirmed by the Cabinet of Ministers upon the approval of the President of the Republic of Azerbaijan within two months.

Decree is effective as of 15 September 2016.

## 3. Single Registry of the licenses and permits

Document: *"Rules on the single registry of the licenses and permits"* adopted by Cabinet of Ministers of the Republic of Azerbaijan

Signed date: 16 September 2016

Number: 347

Commentary: According to the Rules No.347, adopted by the Cabinet of Ministers of the Republic of Azerbaijan, the single registry ("The Registry") of the licenses and permits is conducted by the Ministry of the Economy of the Republic of Azerbaijan ("The Ministry"). Formation, conducting, usage of the registry and protection of the information kept on it are implemented based on the electronic technologies.

Pursuant to the Rules, government authorities, municipalities, legal entities regardless of their organizational and legal form, branches and representations of the foreign legal entities, individual entrepreneurs and natural persons who are not engaged in the entrepreneuiral activities can use the registry. The information kept on the registry is presented to these persons on the basis of their written or electron queries by the Ministry within 5 days.
The usage and acquisition of the information from the registry is free of charge.

Decree is effective as of 16 September 2016.

## 4. Establishment of the single information database of the goods produced in the Republic of Azerbaijan

Document: Decree of the President of the Republic of Azerbaijan *“On the establishment of the single information database of the goods produced in the Republic of Azerbaijan”*

Signed date: 21 September 2016

Commentary: Decree signed on 21 September 2016 envisages acceleration of the integration process of the local goods to international market. In order to achieve these aims, the Center of the Analysis of the Economic Reforms and Communication shall establish an Internet Portal reflecting the information about the goods produced in the Republic of Azerbaijan and information about the producers of these goods. According to the decree, the Center of the Analysis of the Economic Reforms and Communication was assigned to perform the following measures:

- Installation of the user-friendly search system for production activity;
- Establishment of the “electron cabinet” section in portal for the efficient information exchange;
- Implementation of the regular promotion measures for the producers of goods to upload the information to the portal;
- Ensuring the dissemination of the information about the newly created portal via mass media;
- Other issues related to the decree.

It is planned to allocate AZN 400 000 to the Center of the Analysis of the Economic Reforms and Communication from the reserve fund of the Republic of Azerbaijan for the establishment of the portal.

Decree is effective as of 21 September 2016.

## 5. Government support to cotton-growing in the Republic of Azerbaijan

Document: Decree of the President of the Republic of Azerbaijan *“On Government Support to cotton-growing in the Republic of Azerbaijan”*

Signed date: 22 September 2016

Commentary: President of the Republic of Azerbaijan Signed Decree on government support to cotton-growing which is one the traditional fields of agriculture. Decree envisages the provision of cotton producers with subsidy in the amount of AZN 0,1 per kilogram of cotton sold to fabrication enterprises. The subsidy in question also belongs to raw cotton produced in 2016 and sold to fabrication enterprises. According to the decree, rules for granting subsidies have to be determined by the Cabinet of Ministers upon the approval of the President of the Republic of Azerbaijan within 15 days.

Decree is effective as of 22 September 2016.

## 6. Establishment of public legal entity named “ABAD”

Document: Decree of the President of the Republic of Azerbaijan *“On establishment of the “ABAD” public legal entity under the State Agency for Public Sevice and Social İnnovations”*

Signed date: 23 September 2016

Commentary: President of the Republic of Azerbaijan signed a decree *“On Establishment of the “ABAD” (Easy Support to Family Business) Public Legal Entity under the State Agency for Public Sevice and Social İnnovations”* to support the development of the small and medium entrepreneurship on 23 September 2016.

- Implementation of the support projects for family businesses, small and medium entrepreneurs; creation of the fund to Finance these projects;
- Determination of the family businesses, small and medium entrepreneurs for “ABAD” projects;
- Provision of business planning, marketing, branding, design, accounting and legal services to family businesses, small and medium entrepreneurs;
- Organizing the certification of the produced goods based on the simplified one-stop-shop principle;
- Organizing the transportation and sale of the produced goods;
- Organizing trainings about the usage of the production facilities;
- Other measures related to the development of the production-entrepreneurship.

## 7. Rates of custom duties on export-import operations in the Republic of Azerbaijan

Document: Amendments to the law number 80 of the Cabinet of Ministers dated 12 April 2001 “On rates of custom duties on export-import operations in the Republic of Azerbaijan”

Signed date: 23 September 2016

Number: 367
Commentary: According to the law of the Cabinet of Ministers dated 23 september 2016, custom rates of goods brought to the Republic of Azerbaijan have been increased. Adopted law shall be applied to meat, food and milk products; fruit, vegetables and their processed products; alcoholic and non-alcoholic beverages; sulfur, stone, plaster products, as well as lime, cement, ceramics.

The law is effective as of 23 October 2016.

Our contacts

## Heads of Tax and Legal Department in Baku Office



**Vugar Aliyev**
Managing Partner,
Head of Financial Services
Practice in Russia and the CIS
T +994 12 404 8910
E valiyev@kpmg.az



**Mushfig Aliyev**
Partner,
Head of Tax and Legal
Department
T +994 12 404 8910
E maliyev@kpmg.az



**Farid Isayev**
Director,
Head of Legal
Services
T +994 12 404 8910
E fisayev@kpmg.az

# Qanunvericiliyə dair yeniliklərin icmalı

English version

Azərbaycan qanunvericiliyinə edilən və sizin biznes fəaliyyətinizə əhəmiyyətli dərəcədə təsir edə bilən, dövlət və tənzimləyici orqanlar tərəfindən qəbul edilən, arbitraj təcrübəsi, eləcə də Azərbaycan qanunvericiliyində nəzərdə tutulan qanunvericilik layihələrini əks etdirən son dəyişikliklərin həftəlik icmalı.

2016-cı il üzrə bütün yeniliklər · Bizimlə əlaqə

## 10 oktyabr 2016-cı il

## Vergi və Hüquq Xidmətləri

## Cari buraxılışda:

- Pirallahı Sənaye Parkının yaradılması
- Azərbaycan Respublikasında ipəkçiliyin inkişafına dövlət dəstəyi
- Lisenziyaların və icazələrin vahid reyestrinin aparılması
- Azərbaycan Respublikasında istehsal olunan malların vahid məlumat bazasının yaradılması
- Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dövlət dəstəyi
- “ABAD” publik hüquqi şəxsin yaradılması
- Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında

## 1. Pirallahı Sənaye Parkının yaradılması

Sənəd: “Pirallahı Sənaye Parkının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

İmzalandığı tarix: 14 sentyabr 2016-cı il

Şərh: Azərbaycan Respublikası Prezidenti 14 sentyabr 2016-cı il tarixində
Bakı şəhərinin Pirallahı rayonu ərazisində Pirallahı Sənaye Parkının yaradılması haqqında Sərəncam imzalamışdır.

Sərəncamda, Pirallahı Sənaye Parkının sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, sənaye, o cümlədən əczaçılıq sənayesi üzrə rəqabətqabiliyyətli məhsul istehsalı və xidmət göstərilməsi, habelə emal müəssisələrinin yaradılması üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazi olaraq müəyyən edilməsi nəzərdə tutulmuşdur. Sənaye Parkının fəaliyyətinin təşkili, idarə olunması və inkişafı ilə bağlı tədbirləri “Sumqayıt Kimya Sənaye Parkı” Məhdud Məsuliyyətli Cəmiyyəti (“Cəmiyyət”) həyata keçirir.

Pirallahı Sənaye Parkının fəaliyyəti ilə bağlı aşağıda göstərilən tədbirlərin həyata keçirilməsi müvafiq dövlət orqanlarına tapşırılmışdır:

- Pirallahı Sənaye Parkının fəaliyyəti üçün Bakı şəhəri, Pirallahı rayonu, Səməd Vurğun küçəsində 30 hektar torpaq sahəsinin icarəyə vermək hüququ ilə Cəmiyyətin daimi istifadəsinə verilməsinin iki ay müddətində təmin edilməsi – *Azərbaycan Respublikası Nazirlər Kabinetinə;*
- Pirallahı Sənaye Parkında xarici və daxili infrastrukturun yaradılması, istehsal və emal olunan sənaye məhsulları üzrə prioritet istiqamətlərin müəyyənləşdirilməsi – *Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinə;*
- Pirallahı Sənaye Parkının fəaliyyətinin təşkili məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinə ilkin olaraq 4,0 milyon manat ayrılması – *Azərbaycan Respublikası Maliyyə Nazirliyinə.*

Sərəncam 14 sentyabr 2016-cı ildən etibarən qüvvəyə minib.

## 2. Azərbaycan Respublikasında ipəkçiliyin inkişafına dövlət dəstəyi

Sənəd: "Azərbaycan Respublikasında ipəkçiliyin inkişafına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

İmzalandığı tarix: 15 sentyabr 2016-cı il

Şərh: Azərbaycan Respublikası Prezidenti tərəfindən 15 sentyabr 2016-cı il tarixində imzalanmış Sərəncamda barama istehsalı ilə məşğul olan şəxslərə barama emalı və ipək istehsalı müəssisələrinin qəbul etdiyi yaş baramanın hər kiloqramına görə subsidiya verilməsi nəzərdə tutulmuşdur. Subsidiyaların məbləği və verilmə qaydası Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən Azərbaycan Respublikası Prezidenti ilə razılaşdırılaraq iki ay müddətində təsdiq edilməlidir.

Sərəncam 15 sentyabr 2016-cı il tarixindən etibarən qüvvəyə minib.

## 3. Lisenziyaların və icazələrin vahid reyestrinin aparılması

Sənəd: Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul edilən "Lisenziyaların və icazələrin vahid reyestrinin aparılması Qaydası"

İmzalandığı tarix: 16 sentyabr 2016-cı il

Nömrə: 347

Şərh: Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən 16 sentyabr 2016-cı il tarixində qəbul edilən 347 nömrəli Qaydaya əsasən, Lisenziyaların və icazələrin vahid reyestri ("Reyestr") Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ("Nazirlik") tərəfindən aparılır. Reyestrin formalaşdırılması, aparılması, istifadəsi və orada saxlanılan məlumatların mühafizəsi elektron texnologiyalar əsasında həyata keçirilir.

Qaydalara uyğun olaraq, dövlət orqanları, bələdiyyələr, təşkilati hüquqi formasından asılı olmayaraq hüquqi şəxslər, xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri, fərdi sahibkarlar və sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan fiziki şəxslər reyestrdən istifadə edə bilərlər. Reyestrdə olan məlumatlar həmin subyektlərə onların yazılı və ya elektron sorğusu əsasında 5 gün ərzində Nazirlik tərəfindən təqdim olunur.

Qeyd edək ki, reyestrdən istifadə və reyestrdən məlumatların alınması ödənişsizdir.

Qərar 16 sentyabr 2016-cı il tarixindən etibarən qüvvəyə minib.

## 4. Azərbaycan Respublikasında istehsal olunan malların vahid məlumat bazasının yaradılması

Sənəd: "Azərbaycan Respublikasında istehsal olunan malların vahid məlumat bazasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

İmzalandığı tarix: 21 sentyabr 2016-cı il

Şərh: 21 sentyabr 2016-cı il tarixində imzalanmış sərəncam yerli malların beynəlxalq bazara inteqrasiyası prosesini sürətləndirmək və bu sahədə əlverişli şəraiti daha da genişləndirmək xarakteri daşıyır. Göstərilən məqsədlərə nail olmaq üçün İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən Azərbaycan Respublikasında istehsal olunan mallar və həmin malların istehsalçıları barədə məlumatları əks etdirən, ən azı üç dildə fəaliyyət göstərən İnternet portalının yaradılması nəzərdə tutulmuşdur. Sərəncama uyğun olaraq, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə yaradılmış aşağıdakı tədbirlərin həyata keçirilməsi tapşırılmışdır:

- portalda istehsal fəaliyyəti üzrə istifadəsi sadə olan axtarış sisteminin quraşdırılması;
- operativ informasiya mübadiləsini təmin etmək məqsədi ilə portalda "elektron kabinet" bölməsinin yaradılması;
- malların istehsalçıları tərəfindən məlumatların portalda yerləşdirilməsi üçün mütəmadi təbliğat-təşviqat tədbirlərinin həyata keçirilməsi;
- yaradılmış portal barədə məlumatın kütləvi informasiya vasitələri ilə yayılmasının təmin edilməsi;
- bu sərəncamdan irəli gələn digər məsələlər.

Portalın yaradılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə 400,000 manat ayrılması nəzərdə tutulmuşdur. Göstərilən məbləğin maliyyələşdirilməsi Azərbaycan Respublikası Maliyyə Nazirliyinə tapşırılmışdır.

Sərəncam 21 sentyabr 2016-cı il tarixindən etibarən qüvvəyə minib.

## 5. Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dövlət dəstəyi

Sənəd: "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

İmzalandığı tarix: 22 sentyabr 2016-cı il

Şərh: Azərbaycan Respublikası Prezidenti 22 sentyabr 2016-cı il tarixində kənd təsərrüfatının ənənəvi sahələrindən olan pambıqçılığın inkişafına dövlət dəstəyi haqqında sərəncam imzalamışdır. Sərəncam emal müəssisələrinə satılmış hər kiloqram pambığa görə pambıq istehsalçılarına 0,1 manat subsidiya verilməsini nəzərdə tutur. Nəzərdə tutulan subsidiya 2016-cı ildə istehsal olunan və emal müəssisələrinə satılmış xam pambığa da şamil edilir. Sərəncama əsasən, subsidiyanın verilmə qaydası Azərbaycan Respublikası Prezidenti ilə razılaşdırmaqla 15 gün ərzində Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilməlidir.

Sərəncam 22 sentyabr 2016-cı il tarixindən etibarən qüvvəyə minib.

## 6. “ABAD” publik hüquqi şəxsin yaradılması

Sənəd: Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində “ABAD” publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

İmzalandığı tarix: 23 sentyabr 2016-cı il

Şərh: Azərbaycan Republikası Prezidenti 23 sentyabr 2016-cı il tarixində kiçik və orta sahibkarlığın inkişafına dəstək olmaq məqsədilə Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində “ABAD” (Ailə Biznesinə Asan Dəstək) mərkəzlərinin yaradılması haqqında fərman imzalamışdır. Fərman, "ABAD” mərkəzləri tərəfindən aşağıda göstərilən tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:

- ailə təsərrüfatlarına, kiçik və orta sahibkarlara dəstək layihələrinin həyata keçirilməsi, bu layihələrin maliyyələşdirilməsi məqsədi ilə fondun yaradılması;
- “ABAD” layihələri üçün ailə təsərrüfatlarının, kiçik və orta sahibkarların müəyyənləşdirilməsi;
- ailə təsərrüfatlarına, kiçik və orta sahibkarlara biznes planların hazırlanması, marketinq, brendinq və dizayn, maliyyə-mühasibat, hüquqi yardım xidmətlərinin göstərilməsi;
- istehsal olunan məhsulun sertifikatlaşdırılmasının sadələşdirilmiş qaydada “bir pəncərə” prinsipi əsasında təşkili;
- istehsal olunan məhsulun daşınmasının və satışının təşkili;
- istehsal avadanlıqlarından istifadə ilə bağlı təlimlərin keçirilməsi;
- layihə çərçivəsində nəzarət və qiymətləndirmə aparılması;

“ABAD” mərkəzlərinin fəaliyyətə başlaması üçün Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə 1 (bir) milyon manat ayrılması nəzərdə tutulmuşdur.

## 7. Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında

Sənəd: “Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 nömrəli qərarında dəyişikliklər edilməsi barədə

İmzalandığı tarix: 23 sentyabr 2016-cı il

Nömrə: 367

Şərh: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 sentyabr 2016-cı il 367 nömrəli qərarına əsasən, Azərbaycan Respublikasının ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri artırılmışdır. Belə ki, qəbul edilən qərar ət və qida məhsullarına; süd məhsullarına; meyvə, tərəvəz məhsulları və onların emal məhsullarına; spirtli və spirtsiz içkilərə; kükürd, torpaq, daş suvaq məhsullarına; həmçinin əhəng, sement, keramik məmulatlara şamil olunur.

Qərar 23 oktyabr 2016-cı il tarixindən etibarən qüvvədədir.

Bizimlə əlaqə

## Bakı Ofisinin Vergi və Hüquq Departamentinin Rəhbərləri:








**Vüqar Əliyev**

İdarəedici
Partnyor, Rusiya
və MDB ölkələri
üzrə Maliyyə
Xidmətlərinin
Rəhbəri
T +994 12 404 8910
E valiyev@kpmg.az

**Müşfiq Əliyev**

Partnyor,
Vergi və Hüquq
Departmentinin
rəhbəri

T +994 12 404 89 10
E maliyev@kpmg.az

**Fərid İsayev**

Director,
Hüquq Xidmətlərinin
rəhbəri

T +994 12 404 8910
E fisayev@kpmg.az

www.kpmg.az

Privacy | Legal

You have received this message from KPMG Azerbaijan Limited. If you wish to unsubscribe from the Legislative Update Newsletters, please click here. If you wish to unsubscribe from all KPMG communications, please click here.

If you have any questions, please send an e-mail to fisayev@kpmg.az.

KPMG Azerbaijan Limited, Port Baku, 12th floor, 153, Neftchilar Avenue, Baku, AZ1010, Republic of Azerbaijan

© 2016 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan and a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative (“KPMG International”), a Swiss entity. All rights reserved.

The KPMG name and logo are registered trademarks or trademarks of KPMG International. © 2016 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan and a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative (“KPMG International”), a Swiss entity. All rights reserved.

The KPMG name and logo are registered trademarks or trademarks of KPMG International.